

# Gələcəyə İşıq Tutan Əl


*Sara GÖYÇƏLİ*
*AJB üzvü, şairə "Qızıl Qələm" və "Xan qızı Natəvan" Media mükafatları iaureatı*


**Təhsil millətin gələcəyi. Yeni dövlətin təməlidir. Bizim hər birimizin elmi dərəcəmizdən biliyimizdən,təhsil səviyyəmizdən asılı olmayaraq bütün naliyətlərimizə görə müəllimə, məktəbə borcluyuq.**

***(H.Əliyev)***

**Müəllimlik peşəsi dünyanın ən müqəddəs peşələrindən biri hesab olunur. Dahilər həmişə müəllimə hörmət edib, onları özlərinə bir nümunə Ikimi qəbul ediblər. Belə nümunə kimi qəbul olunan, fəxr edilən müəllimlərdən biri də şagirdlərin sevimlisi olan, ibtidai sinif müəlliməsi Axundzadə (Həsənova) Rahibə Nazim qızıdır. Özünü şagirdlərinə, valideynlərə və o cümlədən müəllim kollektivinə sevdirən Rahibə müəlliməni qısa da olsa, oxucularımıza tanış edək. O, 17 sentyabr 1976-cı ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Cəhri kəndində anadan olub.**

İlk təhsilini 1982-1993-cü illərdə doğma kəndində alıb. 1995-ci ildə Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinə daxil olub. 1999-cu ildə Pedaqogiya və Psixologiya istiqamətinin Pedaqogiya və ibtidai təhsilin metodikası fakultəsini müvəffəqiyyətlə bitirərək bakalavr dərəcəsinə yüksəlib.

### *Əmək fəaliyyətinə*

1994-cü ildə doğma kənd məktəbində başlayan Rahibə müəllimə işlədiyi müddətdə kollektivin və uşaqların hörmət və sevgisini qazanıb. 1995-ci ildə həyat yoldaşının işi ilə əlaqədar olaraq ailəsi ilə birgə Bakı şəhərinə köçürlər. 1999-cu ildən bu yana bilik və bacarıqlarına güvənən müəlliməmiz Nərimanov rayon MLK-də ibtidai sinif müəllimi işləyir. Rahibə müəllimə ailəlidir 3 övladı var (iki qızı, bir oğlu). Qızlarından Axundzadə Rəna Orxan qızı Azərbaycan Tibb Universiteti əczaçılıq fakultəsinin məzunudur və hazırda həmin universitetdə maqistr təhsilini davam etdirir. Axundzadə Səma Orxan qızı isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin inşaat mühəndisliyi fakultəsində təhsil alıb və sonra isə Azərbaycan Turizm və Menecmet Universitetinə daxil olaraq maliyə üzrə magistr təhsili alır. Hal hazırda Səma Azərbaycan prezidenti yanında Əhaliyə Sosial xidmət və İnnovasiyalar Agentliyində ictimaiyyət üzrə mütəxəssis işləyir. Oğlu Axundzadə Atilla Orxan oğlu Məktəb Lisey Kompleksinin 8-ci sinifində oxuyur. Həyat yoldaşı, igidliyə görə medalı ilə təltif olunan Axundzadə Orxan Abdulla oğludur. Gözəl ailə başçısı, vətənini, xalqını, peşəsini ürəkdən sevən və dövlətinin, xalqının keşiyində dayanan Orxan bəy dövlət qulluqçusudur.

### *Əsl mətləbə keçmək*

üçün bir az tələsirəm. Rahibə müəlliımənin məktəbdə təşkil etdiyi bir tətbirdə iştirak etmişəm. Uşaqların təhsildə inkişafı üçün cəkdiyi zəhmətini gördükdən sonra istədim sizlərə də tanıdım bu gülərüz, səmimi, səliqəli, xoş görünüşlü, savadlı, bacarıqlı, səbir və təmkinli təşkilatçı, bir sözlə müəllim adının haqqını verən əsil müəlliməni.

Tam əminəm ki,Rahibə müəlliməni tanıyanlar ürəkdən şad olacaqlar ki, zəhməti yerində dəyərləndirilib.

İnsan yaşadığı cəmiyyətdə özünə layiqli yer tutmaq üçün günün, ayın, illərin ətəyindən tutub gedərək min bir zəhmətlərə, əziyyətlərə qatlanarsa nəyə isə nail olur. Bu zəhmətin sayəsində elə-obaya millətə yararlı bir vətəndaşa çevrilir. Cəmiyyətdə və mühitdə yadda qalan izlər qoyur.

Məhz Rahibə müəllimə də həyatda iz qoyan müəllimələrdəndir.

**Müəllim sözündən başlayım, bu söz mənim aləmimdə, böyük bir fəlsəfədir. Rahibə müəlliməni də tanıdıqdan sonra daha da dərinliklərə baş vurdum. Ucalıq zirvəsinə öz adını həkk etmiş insan, şəxsiyyəti formalaşdıran şəxsiyyətdir.**

Ölkəmizdə ulu öndərin qoyduğu bir gözəl ənənə var, təhsilə diqqət ən öndə olmalıdır.

Bu sahəyə diqqəti artıran və millətin gələcəyi üçün təhsil ocaqlarında qoyulan təməl Rahibə xanım kimi müəllimələrin simasında əvəzsizdir. Məktəbin direktoru Məleykə Tağıyeva işinin çoxluğuna baxmayaraq məni cox səmimi qarşladı. Direktor R.Axundzadə barəsində aşağıdakı xoş sözləri dedi:

"Mən üç ildir ki,onu tanıyıram. Hər şeydən əvvəl uşaqlara qarşı çox məhsuliyyətlidir. Onun uşaqlarla, valideyinlərlə davranışı çox yüksək səviyyədədir. Bütün etik normalara riayət edən müəllimə olaraq,uşaqların idealıdır. Onun dərs dediyi şagirdlər təlm-tərbiyəli və nizam-intizamlıdır."



### *Alman dili müəlliməsi*

Aynurə xanımın dediklərindən:

"Həm həmkarıq, həm də övladım Rahibə müəllimənin sinifində oxuyur. Muşahidə etmişəm ki,onun buraxlış sinifinin uşaqları öz davranış və etikaları ilə seçilir.

Hərdən bir valideyin olaraq müəllim həmkarımın dərsində əyləşirəm .Dərsi o qədər maraqlı keçir ki, 45 dəyqə necə keçir bilmirsən. Mənim özümdə həmin dərsdən müəyyən təcrübə əldə edirəm.

**Hansı valideynə yaxınlaşıb, Rahibə müəllimə haqqında maraqlandımsa, əksəriyyəti xoş sözlər söylədi.**

**Valideyinlərdən Nərminə xanım,Cəmilə Yaşar qızı, Xəyalə xanım, Sahilə Əbdürrəhmanova, Pərvənə Əhmədova, Kəmalə Qasılmova və başqaları Rahibə müəllimə barədə ürək sözlərini mənimlə bölüşdülər: ""Şükr edirik ki, övladlarımız Rahibə müəllimənin sinifində oxuyur. Çünki Rahibə müəllimə keçdiyi hər bir dərsi çalışır ki, ən asan üsulla uşaqlara öyrətsin və eyni zamanda da tələbkardır."**

Bəli, Rahibə müəllimə, sizin ən böyük xoşbəxtliyiniz özünüzdən sonra davamçılarınızın olmasıdır. Sizin ilk dəfə əlindən tutub "Ana", "Vətən" sözünü yazmağı öyrətdiyiniz şagirdlərinizin, indi dünyanın neçə ölkəsindən sorağı gəlir. Bu günkü 2-ci sinifdə oxuyan bu uşaqlardan soruşduqda ki, böyüyəndə kim olmaq istəyirsən, onundan səkkizi Rahibə müəllimə kimi müəllimə olacağını söyləyir. Mənim balaca nəvəm Gülayda bu qızların sırasındadır.

Sevinirəm ki, müəllim adının haqqını verən əsil vətəndaş gördüm.

### *Təhsilimiz*

belə etibarlı əllərdədirsə bizim gələcəyimiz olan uşaqlar, ölkəmizə və vətənimizə yararlı, faydalı vətəndaşlar olacaqlar.

Sonda onu da qeyd edim ki, Rahibə müəllimə dəfələrlə təhsil sahəsində biliyinin artırılması sertifikatları aıb. Məktəb və bir sıra cəmiyyətlər tərəfindən fəxri fərmanlarla mükafatlandırılıb. 2010-cu ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi "Mədəd MMC" tərəfindən təşkil olunmuş TRT-nin təhsilə tətbiqi üzrə İntel "Gələcək üçün təhsil" təlim-təhsil kursunu müvəffəqiyyətlə bitirdiyinə görə sertifikatlarla təltif olunub. Təhsildə qazandığı nailiyyətlərə görə dəfələrlə məktəb, lisey kompleksinin fəxri fərmanına layiq görülübdür.

**Baza biliklərinin artırılması yönümündə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Təhsildə innovativ Texnologiyaların" serifikatını və promethan lövhə qazanan dörd müəllimədən biridir. Ona fəaliyyətində uğurlar arzulayırıq!**

Ədalət.- 2020.- 14 yanvar. S. 8.